*Naşı bağban, girmə bağa...*
*Builki qəbul imtahanlarında çoxlu qüsurlar olub.*
*Bunlardan biri də testlərin düzgün tərtib olunmamasıdır.*

*Akif MƏMMƏDOV*

**Abituriyentlərin bir ildən də çox gözlədikləri an – imtahan dəqiqələri arxada qaldı. Və TQDK-nın də elə həmin müddətə hazırladığı test sualları ilə övladlarımızın taleyüklü məsələsi həll edildi. Məlumdur ki, bu suallar son dərəcə diqqətlə hazırlanmalı, onlarda həm metodik-pedaqoji, həm də elmi meyarlar zərgər dəqiqliyi ilə gözlənilməli idi. Çünki burada yol verilən xəta on nəfərin, yüz nəfərin deyil, minlərin həyatına təsir göstərir. Başqa fənlərə yox, bütün bölmələrdəki abituriyentlərin cavab verdikləri Azərbaycan dili və ədəbiyyata aid test suallarına münasibətimi bildirmək istəyirəm. Bəri başdan deyim ki, aldığım təəssürat ürəkaçan deyil. Niyə? Keçək faktlara.**

**6-cı testdə** verilmiş nümunədə toplu isimlərin sayını göstərmək tələb olunur. **Əvvəla**, bu, ismə aid öyrənilənlərin içərisində 5-ci, 6-cı dərəcəli məsələdir. **İkincisi** də, hər hansı nəzəri anlayışın öyrədilməsində əsas məqsəd praktik bacarıqların inkişaf etdirilməsidir. Toplu isimlərin öyrədilməsi də əsasən onun üçün gərəklidir ki, onların uzlaşma əlaqəsi ilə bağlandığı sözlər cəmdə yox, təkdə işlədilsin. Təəssüf ki, verilən nümunənin özündə bu qayda pozulub: “Xalqla həmrəy olduqlarını bildirmək üçün kənd camaatı meydana doğru axışırdı”. “Həmrəy olduqlarını” sözü təkdə işlənməli idi.

**15-ci testdə** isə sadə bir məsələ - feilin forma və şəkil anlayışları qarışdırılır. Fikir verin: “Hansı cümlədəki sözlər feil formalarından (hekayə, rəvayət, şərt) hər üçünü əhatə edir?”. Görəsən, test müəllifləri feilin şəkillərini forma adlandıranda hansı dərslikdən və ya ədəbiyyatdan “bəhrələniblər?”.

**23-cü test** də “maraqlıdır”:

**Aşağıdakı sözlərdən feilin qayıdış və icbar növündə işlənənləri göstərin.**

**A) yazılmaq, açılmaq, baxdırmaq, çalışmaq**

**B) qalanmaq, duyulmaq, sildirmək, əkdirmək**

**C) baxılmaq, alınmaq, baxmaq, üzülmək**

**D) çalışmaq, yazışmaq, gəzdirmək, yazdırmaq**

**E) aldırmq, alışmaq, vuruşmaq, dondurmaq**

A, C, D, və E cavab – variantları şübhəsiz ki, yanlışdır. B variantında isə "sildirmək" və "əkdirmək" feilləri icbar növdədir. Bəs "qalanmaq" və "duyulmaq"? Birinci feil dilimizdə iki mənada – "yanmaq", "alışmaq" və "üst-üstə yığılmaq" – işlənir. Hər iki halda də məchul növdə olur: "Dağın başında ocaq qalandı" (kim tərəfindən?) və ya "Kitablar üst-üstə qalandı" (kim tərəfindən?). Təxminən eyni sözləri "duyulmaq" feili haqqında da demək olar. Bəs elə isə düzgün cavab hansıdır?

**30-cu testdə** isə, əksinə, "düzgün cavablar bolluğu" var: mübtədanın ifadə vasitələri soruşulur və C cavab variantında (4-cü) şəxs əvəzliyi, isim, sifət, mürəkkəb adlar və məsdər; D variantında isə (5-ci) zərf, sifət, feil və məsdər sadalanır. Əvvəla, burada məsdərlə feilin bir cərgədə verilməsi səhvdir. Çünki məsdər də feildir. Məsdərin (ümumiyyətlə, feilin dəyişməyən formalarının) ayrıca nitq hissəsi olması fikri mübahisəlidir və məktəb proqramında feilin forması kimi tədris edilir. Belədirsə, demək, feil də müəyyən formasında (feili sifət, məsdər) mübtəda ola bilər. Deməli, həm C, həm də D cavablarını düzgün götürmək olar...

**14-cü test** isə başdan-ayağa "tilsim"dir. Ona cavab vermək üçün gərək test müəlliflərinin ürəklərində nəyin tutduğunu biləsən, necə deyərlər, ekstrasens olasan. Testin sualına baxaq:

**"(1T+2T; 1T+2Tm) sxemlərinə uyğun ismi birləşmələri seçin".** Burada dərsliyin (7-8-ci siniflər üçün "Azərbaycan dili" dərsliyi, 1984) 88 nömrəli çalışmasındakı sxemdən istifadə etməyə cəhd ediblər. Orada (çalışmada) məqsəd hər üç ismi birləşməni fərqləndirə bilməyi yoxlamaqdır. Testdə isə həmin sxemə "yaradıcı" yanaşılıb və bununla da hər şey alt-üst olunub. Belə ki, birinci sxemə (1T+2T) hər üç ismi birləşmə girir. Tutaq ki, abituriyent bunları hesabladı. Sonra isə ikinci sxem üçün (1T+2Tm) II və III növ ismi birləşmələri saymalıdır. Çox

yaxşı. Bu, mümkün işdir. Bəs bunları cavab variantlarında necə reallaşdırsın? Onlar isə belə göstərilib:

**A)1 B)2 C)3 D)4 E)5**

**Müəlliflərin nəzərdə tutduqları düzgün cavablar əlimizdə olmadığından bəzi testlər haqqında konkret söz deməkdə çətinlik çəkirik. Məsələn, 24-cü testin düzgün cavabı kimi D variantı nəzərdə tutulubsa, yanlışdır. Çünki testdə hansı cərgədəki ismi birləşmələrin bir cümlə üzvü yerində işləndiyi soruşulur və D-də II və III, B-də isə I, II və III növ ismi birləşmələr göstərilir. Əslində B cavabı düzgün sayılmalıdır. Çünki 7-8-ci sinfin "Azərbaycan dili" dərsliyinin 19-cu səhifəsində şagird oxuyur: "Bəzən I növ ismi birləşmənin tərəfləri birlikdə cümlənin bir üzvü olur". Testdə isə "bəzən" və ya "həmişə" işləndiyi yox, ümumiyyətlə "işlənə bilir?" soruşulur. I növ ismi birləşmənin tərəfləri isə bəzən də olsa, hər halda, işlənə bilir.**

***13-cü test*** də belədir.

Biz mətbuatdakı çıxışlarımızda dönə-dönə qeyd etmişdik ki, ədəbiyyatdan da düşündürücü testlər vermək mümkündür və konkret nümunələr göstərmişdik. Çox təəssüf ki, builki ədəbiyyat testləri də tapmaca xarakteri daşıyır və əslində, çox vaxt abituriyenti yoxlamaq əvəzinə, unutduğunu da onun yadına salır. Həm də ədəbi əsərlərin ideya-bədii təhlili, mövzusu, məzmunu əvəzinə, ikinci dərəcəli şeylər soruşulur. Bunlar azmış kimi müəyyən qüsurlara da yol verilir. ***40-cı testə*** nəzər salaq:

*"Nazik bədən ilə bərgi-gülsən,*
*Əmma nə deyim ikən yünülsən!*
*misralarında hansı təsvir vasitəsindən istifadə edilmişdir?*

*A) Epitet*

*B) Təşbeh*

*C) Istiarə*

*D) Mübaliğə*

*E) Metonimiya"*

Ola bilsin ki, müəlliflər B variantını düzgün cavab kimi nəzərdə tutublar. Amma fakt odur ki, bu parçada epitet də var (nazik). Deməli, cavablardan ikisi düzdür.

Mən builki test müəlliflərindən heç birini tanımıram. Ola bilsin ki, onlar da məktəb sahəsində uzun müddət külüng çalıblar və ya filologiyanın nəzəri sahəsində tanınmış alimlərdir. Amma bu, bir həqiqətdir ki, qəbul üçün test suallarını hazırlayanlar həm testin əlamətlərinə, həm məktəb proqramına, metodika elminə dərindən bələd olmalı, həm də məşğul olduğu sahənin elmi-nəzəri incəliklərini bilməlidirlər. Bu sahələrdən hətta birində naşı olanları qəbul imtahanı kimi məsul işə cəlb etmək yolverilməzdir.

***"Azadlıq" qəzeti 2 noyabr 1993 №120 (347)***